***Günel MƏLİKLİ*** *

# AZƏRBAYCANDA DÖVLƏTÇİLİK ƏNƏNƏLƏRİNİN FORMALAŞMASI VƏ TƏKAMÜLÜ

**Açar sözlər:** dövlətçilik, dövlət idarəçiliyi, xalq cümhuriyyəti intibah dövrü, ərəb xilafəti, çar Rusiyası

**Keywords:** statehood, public administration, popular renaissance, Arab caliphate, tsarist Russia

**Ключевые слова:** государственность, государственное управление, всенародный ренессанс, арабский халифат, царская Россия

Azərbaycanda indiki dövlətçilik sistemi xalqımızın kifayət qədər mürəkkəb və ziddiyyətli, lakin zəngin tarixi ilə şərtlənən dövlətçilik mədəniyyətinin, ənənələrinin qanunauyğun davamıdır.

Araşdırmalar sübut edir ki, «Azərbaycan xalqı dünyanın ən qədim və ən zəngin dövlətçilik ənənələrinə malik olan xalqlarındandır. Ölkəmizin təqribən 5 min illik dövlətçilik tarixi vardır... Azərbaycan ərazisində ilk dövlət qurumları hələ eramızdan əvvəl IV minilliyin sonu – III minilliyin əvvəllərində yaranmağa başlamışdı. Zaman keçdikcə Azərbaycanın dövlətçilik mədəniyyəti daha da yüksəlmiş, ölkə ərazisində daha təkmil və və daha geniş əraziləri əhatə edən yeni dövlətlər yaranmışdır. Eramızdan əvvəl I minillikdə – bizim eranın I minilliyinin əvvəllərində Azərbaycan torpaqlarında Manna, İskit (Skit, Skif) şahlığı, Atroropatena və Albaniya kimi qüvvətli dövlətlər mövcud olmuşdur. Bu dövlətlər Azərbaycanda dövlət idarəçiliyi mədəniyyətinin daha da yüksəlməsində mühüm rol oynamışlar. [3 s.5]

Məhz bunun nəticəsində tarixən ölkəmizdə müxtəlif dinlərə münasibətdə yüksək tolerantlıq, dözümlülük mühiti yaranmışdır. Yunan – Roma mədəniyyətinin, bütün antik sivilizasiyanın güclü təsiri altında inkişaf edən elm, ədəbiyyat və incəsənətimiz çox erkən dövrlərdə özünəməxsus forma və məzmuna malik olmağa başlamışdır. Bununla yanaşı, sözsüz ki, bizim zəngin mədəniyyətimizin formalaşmasına müxtəlif mərhələlərdə həm zərdüştilik, yəhudi, xristian, həm də islam mədəniyyətlərinin təsiri olmuşdur.

* **Günel Məlikli** - AMEA-nın Fəlsəfə İnstitutunun "Heydər Əliyev irsi və Azərbaycançılıq fəlsəfəsi" şöbəsinin aparıcı elmi işçisi, elmlər doktoru hazırlığı üzrə dissertantı, siyasi elmlər üzrə fəlsəfə doktoru.

Azərbaycan tarixən müəyyən işğal faktları ilə üzləşməli olmuşdur. III əsrdə Sasani imperiyasının, VII əsrdə Ərəb xilafətinin işğalı buna misal ola bilər. Sasani və ərəb zülmü təxminən 600 il davam etsə də, Azərbaycanın qədim dövlətçilik ənənələrini məhv edə bilməmişdir.

Xilafətin dağılmasından sonra, IX əsrin ortalarınldan etibarən Azərbaycanın qədim dövlətçilik ənənələrinin yenidən dirçəlməsi baş verdi, sosial-iqtisadi, siyasi və mədəni həyatda nəzərə çarpan irəliləyişlər özünü göstərdi. Bütün bunlar islam dininin yayıldığı Azərbaycan torpaqlarında yerli dövlətlərin (məsələn, Saçilər, Şirvanşahlar, Rəvvadilər, Şəddadilər, Şəki hakimliyi) yaranmasına, tariximizin İntibah dövrünün başlanmasına səbəb oldu.

Yerli dövlətlərin rolunu və əhəmiyyətini aydın təsəvvür etmək baxımından Sacilər dövlətinin fəaliyyətinə, qısaca da olsa, diqqət yetirmək vacibdir. Qeyd edək ki, IX əsrin 80-ci illərindən başlayaraq yarım əsrdən çox davam edən bir tarixi dövr ərzində bütün Azərbaycan torpaqları bu vahid Azərbaycan türk dövlətinin tərkibində olmuşdur. Həmin dövrdə ölkədə sosial-iqtisadi və mədəni əlaqələr inkişaf etmiş, Azərbaycan xalqının formalaşması prosesi sürətlənmiş, etnik-siyasi birlik xeyli möhkəmlənmişdir.

XI əsrin ortalarından etibarən geniş bir ərazidə Böyük Səlcuq imperatorluğunun yaranması, Yaxın və Orta Şərqdə öz təsirini gücləndirməsi, Azərbaycanın bu imperatorluq tərkibində fəaliyyəti tarixi proseslərdə mühüm dönüş dövrünün başlanması demək idi. Bu imperatorluq növbəti oğuz-türk dövləti idi. Onun ərazisi Orta Asiyadan Aralıq dənizi sahillərinə və Dərbənd keçidindən İran körfəzinə qədər çox geniş yerləri əhatə edirdi. Səlcuq dövrü ölkəmizin taleyində çox əhəmiyyətli rol oynamışdır.

Belə ki, Azərbaycanı ələ keçirməyə çalışan xristian bloku məhz bu dövrdə iflasa uğramışdır. Bizans imperiyasının hərbi qüvvələrinin məğlubiyyəti həmin imperiyanın Cənubi Qafqazı bütövlükdə xristianlığın təsir dairəsinə salmaq planını pozmuş, xristian amilinin qeyd etdiyimiz məkanda tənəzzülünü şərtləndirmişdir. Bu zəmində «oğuz-türk tayfaları, qəti olaraq, bütün Cənubi Qafqazda və Ön Asiyada başlıca etnik-siyasi amilə çevrildilər. Türk-islam amili bütün Yaxın və Orta Şərqin, o cümlədən Qafqazın bundan sonrakı tarixində uzun müddət müəyyənedici rol oynadı. Azərbaycan türk dili bütün Cənubi Qayfqazda, o cümlədən Azərbaycan ərazisində başlıca ünsiyyət vasitəsinə çevrildi. Bu amil Azərbaycan dövlətçiliyinin təsir dairəsini daha da genişləndirdi». [7,s.6]

Tarixçilər haqlı olaraq belə bir məqama diqqət yetirirlər ki, ərəb xilafətinin tənəzzülündən sonra Qafqazda, habelə bütün Yaxın və Orta Şərqdə türk-islam imperiyalarının rolu nəzərə çarpacaq dərəcədə artdı. Müxtəlif türk-islam sülalələrinin idarə etdikləri dövlətlər təkcə Azərbaycanın, Cənubi Qafqazın deyil, eyni





zamanda bütün Yaxın və Orta Şərqin dövlətçilik tarixində dərin iz qoydular. Azərbaycan uzun müddət həmin dövlətlərin əksəriyyətinin mərkəzi vilayəti olmuşdur.

XV-XVIII əsrlərdə Azərbaycanın dövlətçilik mədəniyyətinin daha da zənginləşməsi imkanları gücləndi. Həmin dövrdə geniş əraziləri əhatə edən Qaraqoyunlu, Ağqoyunlu, Səfəvi və Əfşar imperiyaları bilavasitə Azərbaycan sülaləri tərəfindən idarə olunurdu. Bu əhəmiyyətli amil ölkənin daxili və xarici əlaqələrinə fəal təsir göstərir, hərbi-siyasi, maddi və mənəvi baxımdan Azərbaycanın mövqeyini gücləndirir, bütövlükdə inkişaf üçün əlverişli zəmin yaradırdı.

Səfəvi dövlətinin süqutundan sonra hakimiyyətə gələn Nadir şah Əfşar keçmiş Səfəvi imperiyasının sərhədlərini daha da genişləndirə bilsə də, qüdrətli mərkəzləşdirilmiş dövlət yaratmaq planlarını reallaşdıra bilmədi. Onun geniş ərazili imperiyasının süquta uğraması nəticəsində Azərbaycan torpaqlarında yenidən yerli dövlətlər yarandı.

Artıq XVIII əsrin ikinci yarısında Azərbaycanın xırda dövlətlərə – xanlıqlara parçalanması ciddi problemlərə zəmin yaratdı: xanlıqların bir-biri ilə rəqabət aparması vəziyyəti əhəmiyyətli dərəcədə pisləşdirdi; bütün ölkəni yenidən vahid dövlət çərçivəsində birləşdirmək səyləri nəticəsiz qaldı; siyasi pərakəndəliyin güclənməsi Azərbaycanı işğal etməyə çalışan yadelli təcavüzkarların işini asanlaşdırdı.

XVIII əsrin sonlarında İranda Azərbaycan-türk sülaləsi olan Qaçarlar (1796-1925) hakimiyyətə gəldilər. Onlar vaxtı ilə Nadir şahın hakimiyyəti altında olmuş bütün əraziləri, o cümlədən Azərbaycan xanlıqlarını yenidən mərkəzi hakimiyyətə tabe etmək istiqamətində fəaliyyəti gücləndirdilər. Rusiya imperiyası da, məlum olduğu kimi, Cənubi Qafqazı işğal etmək istəyirdi. Maraqların toqquşması Azərbaycanı müharibə meydanına çevirdi. Rusiya tərəfindən ərazi vədləri ilə şirnikləndirilən erməni və gürcü generalları Azərbaycanın dinc əhalisinə qarşı dəhşətli soyqırımları törətdilər. Bu azmış kimi, Gülüstan (1813) və Türkmənçay (1828) müqavilələrinə əsasən müstəqil Azərbaycan dövlətlərinin varlığına son qoyuldu, ərazilər iki imperiya arasında bölüşdürüldü: Şimali Azərbaycan Rusiyaya, Cənubi Azərbaycan isə Qacarların idarə etdiyi İran şahlığına qatıldı. Azərbaycan xalqının şimalda ruslaşdırılması, cənubda isə farslazdırılması dövrü başlandı.

Rusiya öz işğalçılıq siyasətində daha da irəli gedərək azərbaycanlıları Cənubi Qafqazdan sıxışdırıb çıxarmaq siyasəti yeritməyə başladı. Bu siyasəti reallaşdırmaq üçün onun seçdiyi vasitələr olduqca müxtəlif idi:

- Cənubi Qafqazın xristian əhalisinə arxalanmaq, Azərbaycanın xristian-alban əhalisini öz siyasətinin mühüm amilinə çevirmək;

• Cənubi Qafqazda xristian amilini yenidən dirçəltmək, Rusiyadan Azərbaycana xristian əhalinin köçürülməsinə hər vasitə ilə kömək etmək;

• işğal olunmuş Azərbaycan torpaqlarına, xüsusən Qarabağın dağlıq ərazilərinə, keçmiş İrəvan və Naxçıvan xanlıqlarının ərazilərinə qonşu ölkələrdən ermənilərin kütləvi surətdə köçürülməsini təmin etmək;

• Qərbi Azərbaycan ərazisində – keçmiş İrəvan və Naxçıvan xanlıqlarının ərazisində «Erməni vilayəti» yaratmaq, bununla da gələcək erməni dövlətinin yaradılması üçün zəmin hazırlamaq;

• müstəqil Alban kilsəsini ləğv etmək (1836-cı il), onu erməni Qriqorian kilsəsinin tabeçiliyinə vermək, Azərbaycanın qədim əhalisi olan xristian albanların erməniləşdirilməsi, qriqorianlaşdırılması imkanlarını artırmaq;

• erməniləri silahlandırmaq və türk-müsəlman əhalisi üzərinə qaldırmaq, kütləvi qırğınlara rəvac vermək.

Qeyd etmək yerinə düşər ki, İranın şahlıq rejimi tərəfindən Azərbaycanın cənub torpaqlarında da təxminən eyni cür siyasət həyata keçirilirdi.

Bütün bunlara baxmayaraq, Azərbaycan xalqı müstəqil yaşamaq ənənələrinə sadiq qaldığını sübut etdi, həm şimalda, həm də cənubda azadlıq mübarizəsini gücləndirdi. Bu prosesin gedişində Rusiya və İran Qacarlar dövləti xalqımızın azadlıq mübarizəsinə qarşı etibarlı müttəfiqlər kimi çıxış etdilər. Buna baxmayaraq, Azərbaycan xalqı Rusiya ağalığına, İranın şahlıq rejiminə qarşı istiqlal mücadiləsini daha da genişləndirdi, müstəqil dövlət yaratmaq arzusunu gerçəkləşdirmək istiqamətində öz səylərini artırdı. Həmin səylərin nəticəsi Rusiyada Birinci rus inqilabı (1905-1907), İranda isə 1905-1911-ci illər inqilabı dövründə daha aydın şəkldə özünü göstərdi. Azərbaycan xalqının öz müstəqil dövlətçiliyini bərpa etmək, demokratik idarəçilik sistemi yaratmaq uğrunda mübarizəsi ciddi maneələrlə üzləşsə də, tədricən əsaslı nəticəliliyə doğru irəliləyirdi.

Çar Rusiyası çalışırdı ki, Cənubi Qafqazı müsəlman-türk əhalisindən təmizləsin, milli-müstəmləkəçilik siyasətini daha dəhşətli formalarda reallaşdırsın. Təbiidir ki, qədim dövlətçilik ənənələrinə malik olan Azərbaycan belə siyasətlə barışmayaraq, milli müqavimət hərəkatını genişləndirir, əslində bu hərəkatın mərkəzinə çevrilirdi.

XIX əsrin sonu – XX əsrin əvvəllərində ciddi ictimai proseslər baş verirdi. Bu proseslər Rusiya imperiyasının ən iri və mühüm mərkəzlərindən biri olan Bakını öncül ictimai-siyasi fikir mərkəzinə çevirmişdi. Qabaqcıl Azərbaycan ziyalıları ayrı-seçkiliyin, müxtəlif məhdudiyyətlərin aradan qaldırılmasını, türk-müsəlman əhalisinin imperiyanın mərkəzi və yerli hakimiyyət orqanlarında təmsil olunmasını tələb edirdilər.





Tarixi proseslərin gedişi ona gətirib çıxardı ki, 1813 və 1828-ci illərdə imzalanmış Gülüstan və Türkmənçay müqavilələri Azərbaycanı, onun tarixi torpaqlarını parçaladı, xalqımızı iki yerə böldü. Bu gün tam qətiyyətlə demək olar ki, bütün dünyaya səpələnmiş azərbaycanlılar müstəqil Azərbaycan Respublikasını öz vətəni sayır, onu milli dövlətçiliyin, milli ruhun, milli dəyərlərin, milli mənəviyyatın və mədəniyyətin məbədi kimi yüksək qiymətləndirirlər.

XX əsrdə təşəkkül tapmış azərbaycançılıq ideyalarının böyük vüsət almasının məntiqi nəticəsidir. XX əsrdə bizim qazandığımız uğurlar, o cümlədən müstəqil dövlət qurmaq əzmimizin köklərini uzaq və yaxın tariximizdə, xüsusilə XIX əsrdə formalaşmış və təşəkkül tapmış qaynaqlarda axtarıb tapmaq lazımdır. Bu qaynaqlar həm ayrı-ayrı görkəmli şəxsiyyətlərin, Abbasqulu ağa Bakıxanov və Mirzə Kazım bəy kimi nadir insanların çox uğurlu yaradıcı fəaliyyətində öz əksini tapmış, həm də birbaşa milli maarifçilik ideyalarının gerçəkləşməsi ilə bağlı olmuşdur. Azərbaycanda məhz bu dövrdə demokratik mətbuat, anadilli məktəb, dünyəvi teatr yaranaraq milli şüurun formalaşmasına güclü təkan verdi.

Bu dövrdə «Üsuli-cədid» məktəblərini açmağa çalışırdılar. Həmçinin Şamaxıda Seyid Əzim Şirvani, Şuşada Mir Möhsün Nəvvab ənənəvi təlim və tədrisdən əl kəçərək, yeni üsulla dərs verirdilər.

80-cı illərdən başlayaraq «Rus – tatar məktəbi» adı ilə tanınan dördillik ibtidai məktəblər açıldı. Yeni tipli məktəblərin şəbəkəsi genişlənirdi. 1906-cı ildə erməni-müsəlman qurultayında nümayəndə olan Əlimərdan bəy Topçubaşov öz çıxışında bütün ibtidai məktəblərdə ana dilinin məcburi tədris edilməsi məsələsini tələb edirdi. Vətənində maarifin digər ciddi problemlərinə də sərt şəkildə toxunan Ə.Topçubaşov bildirirdi ki, Zaqafqaziyanın Qori müəllimlər seminariyasında tatar şöbəsi öz təyinatına qətiyyən uyğun deyil. Müsəlman azərbaycanlıların bir dənə də olsun öz müəllimlər seminariyası, həmçinin təhsilli ruhanilər hazırlayan orta və hətta aşağı ruhani məktəbi mövcud deyildi. Əlimərdan bəy Topçubaşov tələb edirdi ki, Zaqafqaziya seminariyasının Qoridəki tatar şöbəsini Azərbaycan şəhərlərindən birinə köçürərək onu müəllimlər institutuna çevirsinlər. Həmçinin o, müsəlman ruhani seminariyası açılmasının da vacibliyini bildirirdi.

1875-ci il iyulun 22-də «Əkinçi» qəzetinin ilk nömrəsi çıxmış, Cəlil Məmmədquluzadənin təşəbbüsü və başçılığı ilə nəşrə başlayan «Molla Nəsrəddin» jurnalı bütün Şərqin mətbuat tarixində özünəməxsus məktəbin əsasını qoymuşdu. Həmçinin, bu dövrdə milli teatrın yaranaraq, Mirzə Fətəli Axundovun komediyaları hələ XIX əsrin 50-ci illərində Peterburq və Tiflisdə tamaşaya qoyulmuşdur. 1873- cü ildə Həsən bəy Zərdabi Nəcəf bəy Vəzirovla birlikdə milli Azərbaycan teatrının əsasını qoymuşdur. İlk tamaşa «Lənkəran xanın vəziri», sonrakı isə «Hacı Qara» olmuşdur. Bakı tamaşasından sonra Quba və Şəkidə Azərbaycan

dilində teatr tamaşaları təşkil edilmiş. 1879-cu ildə Şəkidə Rəşid bəy Əfəndiyev, 1882-ci ildə Şuşada Yusif bəy Məlikhaqnəzərov, 1883-cü ildə Naxçıvanda Məmmədtağı Sidqi teatr həvəskarlarının köməyi ilə Axundovun komediyalarından tamaşalar vermişlər. 1908-ci ildə dahi Azərbaycan bəstəkarı Üzeyir Hacıbəyovun «Leyli və Məcnun» operasının ilk tamaşası olmuşdur. Müslüm Maqomayevin 1916-cı ildə yaratdığı «Şah İsmayıl» operası da Azərbaycan səhnəsində müstəsna yer tutdu.

Bu dövrdə Azərbaycan ziyalılarının müxtəlif sahələrdə göstərdiyi fəaliyyət milli dirçəliş, milli oyanış, milli ruhun aşılanması proseslərinə xidmət edirdi. Beləliklə, XIX əsrdən başlayan mürəkkəb ictimai-siyasi proseslərin gedişi Azərbaycan cəmiyyətində əsaslı dəyişikliklərə gətirib çıxartdı, yeni mühitdə formalaşan görkəmli ictimai və siyasi xadimlərimiz əsrin çağırış və tələblərinə layiqincə cavab verməyə qadir oldular. Azərbaycan Xalq Cümhuriyyətinin qurulması üçün münbit zəmin yarandı.

Azərbaycan Xalq Cümhuriyyəti o zaman son dərəcə çətin, mürəkkəb şəraitdə fəaliyyət göstərsə də, demokratik inkişaf yolunu seçmişdi. Məsələnin mahiyyətini aydın təsəvvür etmək üçün bir nümunəyə müraciət etmək kifayətdir. 1918-ci il noyabrın 19-da Milli Şüranın M.Ə.Rəsulzadənin sədrliyi ilə keçən iclasında qeyd edilmişdi ki, Azərbaycanın əhalisi yalnız azərbaycanlılardan ibarət deyildir. Ona görə də Azərbaycanın Milli Şürasında qeyri millətlər də təmsil edilməlidirlər. Başqa sözlə, Azərbaycan ərazisində yaşayan bütün millətlər, xalqlar parlamentdə təmsil olunmalıdırlar. Azərbaycan Milli Şurası ölkə əhalisinin (2 milyon 750 min nəfər) hər 24 min nəfərinə 1 nəfər nümayəndə hesabı ilə 120 nəfərdən ibarət olmalı idi. Onlardan 80 nəfər müsəlmanları, 21 nəfər ermənilər, 10 nəfər rusları, 1 nəfər almanları və 1 nəfər yəhudiləri təmsil etməli idi. Sayları çox az da olsa da, gürcülər və polyaklar hərəsi 1 deputatla parlamentdə təmsil olanmalı idilər [3, s.13].

Araşdırmalar göstərir ki, bir tərəfdən xalqımızın qədim dövlətçilik ənənələri, digər tərəfdən isə qabaqcıl ziyalılarımızın yiyələndiyi müasir dövlət quruculuğu təcrübəsi müstəqil dövlət qurmaq və yaşamaq imkanlarının reallaşması üçün yol açırdı. Deməli, Azərbaycan milli müstəmləkə zülmünün hökmran olduğu car mütləqdiyyətinin süqutu zamanı real hadisələrin gedişi ilə şərtlənən yeni idarəçilik sisteminin – parlamentli respublikanın qurulmasına yetərincə hazır idi.

Məlumdur ki, 1917-ci ilin fevralında Romanovların hakimiyyətinin devrilməsi, Müvəqqəti hökumətin fəaliyyətə başlaması, Cənubi Qafqazın idarəçiliyi üzrə Xüsusi Komitənin yaradılması vəziyyəti sabitləşdirə bilmədi. 1917-ci ilin oktyabrında baş verən hakimiyyət çevrilişindən sonra Rusiyanın Müəssislər Məclisinə Cənubi Qafqazdan seçilən deputatlar Petroqrada və Moskvaya gedə





bilmədiklərinə görə 1918-ci ilin fevralında Tiflisdə Zaqafqaziyanın ali hakimiyyət orqanını – Zaqafqaziya Seymini, yəni Zaqafqaziya Parlamentini yaratdılar. Burada Müsəlman fraksiyasını Müəssislər Məclisinə seçilən 44 deputat təmsil edirdi. Bu fraksiya əslində Zaqafqaziya Müsəlman Şürası, yəni Zaqafqaziya Müsəlman Partamenti funksiyasını yerinə yetirirdi. Zaqafqaziya Seyminin fəal üzvləri olan Azərbaycan nümayəndələrinin tələbi ilə 1918-ci il aprelin 9-da Seym Zaqafqaziyanın müstəqilliyini elan etdi. Birləşmiş Zaqafqaziya Cümhuriyyəti yaradıldı. Lakin kəskin milli mənafe ziddiyyətləri nəticəsində normal fəaliyyət mümkün olmadı. 1918-ci il mayın 25-də gürcü nümayəndələri Seymdən çıxdılar və ertəsi gün – mayın 26-da Gürcüstanın müstəqilliyini elan etdilər. Mayın 27-də Seymin Müsəlman fraksiyası, yəni Zaqafqaziya Müsəlman Şurası öz iclasını keçirdi və Azərbaycanın müstəqilliyini elan etmək qərarına gəldi. Zaqafqaziya Müsəlman Şurası özünü Azərbaycan Milli Şurası, başqa sözlə, Azərbaycan Parlamenti elan etdi. Bu, əslində Azərbaycanda ilk parlamentin yaranması, ilk parlamentli respublikanın bünövrəsinin qoyulması demək idi. Həmin iclasda Azərbaycan Milli Şurasının Rəyasət Heyəti və sədri də seçildi. M.Ə.Rəsulzadə Milli Şuranın sədri oldu. Bir gün sonra – mayın 28-də Həsən bəy Ağayevin sədrliyi ilə Azərbaycan Milli Şurasının tarixi iclası keçirildi və Azərbaycanın İstiqlal Bəyannaməsi qəbul edildi. Bəyannamədə bildirilirdi:

1. Bu gündən etibarən Azərbaycan xalqı hakimiyyətə malik olduğu kimi, Cənub-Şərqi Zaqafqaziyanı əhatə edən Azərbaycan da tam hüquqlu müstəqil bir dövlətdir.

2. Müstəqil Azərbaycan dövlətinin idarə forması Xalq Cümhuriyyətidir [3, s.11]

Beləliklə, çox mürəkkəb və ziddiyyətli bir tarixi şəraitdə Azərbaycanın şimal torpaqlarında dövlətçilik ənənələrimiz yenidən, özü də partamentli respublika formasında dirçəldi, çoxcəhətli fəaliyyəti ilə tariximizi misilsiz dərəcədə zənginləşdirdi.

Məlum tarixi şəraiti və ermənilərin həyata keçirdiyi soyqırımları təsəvvür etməklə bu məsələnin nə qədər demokratik əsasda qoyulması və həll olunması xalqımızın humanist və tolerant təbiətini aydın şəkildə nümayiş etdirir.

Azərbaycan Xalq Cümhuriyyəti özünün siyasi quruluşuna, dövlətçilik sahəsində, ictimai həyatın digər sahələrində reallaşdırdığı tədbirlərin mahiyyətli xarakteistikasına görə bütün Şərqdə, o cümlədən türk-islam dünyasında demokratik, hüquqi və dünyəvi dövlətin nadir nümunəsidir. Zənnimizcə, Azərbaycan Xalq Cümhuriyyətinin zəngin fəaliyyətinin bütün məqamları daha dərindən araşdırılmalı, ölkəmizin digər dövlətlərlə indiki əməkdaşlığının yaratdığı əlveriş-

li imkanlardan istifadə olunmalı, xarici ölklərdəki ilk mənbələrin elmi dövriyyəyə cəlb olunması təmin edilməlidir.

Şərqdə ilk parlamentli respublika olan Azərbaycan xalq Cümhuriyyəti xalqımızın ictimai fikir tarixində, dövlət suverenliyimizin bərpası yolunda layiqli yer tutur. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev qeyd etmişdir ki, «1918-20-ci illər xalqımızın milli mövcudluğunun imtahana çəkildiyi bir dövr idi. Milli dövlətçiliyinin bərpası faktının özü milli varlığın qorunub saxlanılmasında çox mühüm rol oynamışdır. Əsrin əvvəlində bu milli oyanış xalqımızın qərinələrdən bəri ürəyində yaşatdığı istəklərin məntiqi nəticəsi idi. Bu dövr Azərbaycan dövlətinin, onun parlamentinin fəaliyyəti üçün çox mürəkkəb və məsuliyyətli bir dövr idi» [6, s.101,105].

Bəs Azərbaycanda Xalq Cümhuriyyətinin süqutundan sonra vəziyyət necə dəyişildi? Şimali Azərbaycanda müstəqil Azərbaycan dövlətçiliyinə son qoyuldu, 1920-ci il aprelin 28-də Azərbaycan Sovet Sosialist Respublikasının yaradılğıdı elan olundu. Xalq Cümhuriyyəti dövründə yaradılmış müstəqil dövlət idarəçiliyi sisteminin dağılmasına başlandı. Azərbaycanın hər yerində İnqilab Komitələri yaradıldı və onlara fövqəladə səlahiyyətlər verildi. Zahirən «istismarçılara qarşı fəhlə-kəndli hakimiyyətini» yaratmaq və möhkəmləndirməkdən söhbət getsə də, «əslində hər şey xalqın dövlətçilik ənənələrini və milli müstəqillik şüurunu məhv edən qanlı kommunist diktaturasının yaradılmasına yönəlmişdi» [9, s.73].

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 16 may 2017-ci il tarixli sərəncamında deyilir: „Yeni qurulan Azərbaycan Xalq Cümhuriyyəti öz üzərinə götüdüyü çətin tarixi vəzifəni imkanlarının ən son həddində çalışaraq şərəflə yerinə yetirdi. "Sərəncamda Xalq cümhuriyyətinin demokratik prinsiplərə, insan haqqlarının qorunmasına yetirdiyi diqqətə də yüksək qiymət verilir: "Mövcudluğunun ilk günlərindən xalq hakimiyyəti və insanların bərabərliyi prinsiplərinə əsaslanan Azərbaycan Xalq Cümhuriyyəti bütün ölkə vətəndaşlarına eyni hüquqlar verərək irqi, dini, sinfi bərabərsizliyi ortadan qaldırdı. Cümhuriyyət parlamentinin il yarımlıq fəaliyyəti boyunca qəbul etdiyi qanunlar milli dövlətin müstəqilliyinin möhkəmləndirilməsinə, siyasi və iqtisadi inkişafa, mədəniyyət və maarif sahələrində sürətli irəliləyişə imkan verdi" [1 s.12]





**İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT**


1. 100 yaşlı Azərbaycan. Redaktor: Bəxtiyar Sadıqov, Buraxılşa məsul: İxtiyar Hüseynli. "Azərbaycan" qəzeti, 2019. "Mütərcim" Nəşriyyat-Poliqrafiya Mərkəzi, s.21,22
2. Andriyanov V., Mirələmov H. Heydər Əliyev. Nurlan , Bakı-2008, s.378
3. Azərbaycan Xalq Cümhuriyyəti tarixinin aktual problemləri. Beynəlxalq elmi sessiya.(mart-may 2003). Materiallar Bakı: 2003, s.5.
4. Bakı Dövlər Darülfünun təsisi . Azərbaycan Universiteti nəşriyyatı, 1989. S.36
5. Əliyev Heydər. Müstəqilliyimiz əbədidir . On beşinci kitab: mart, 1998 – iyun, 1998 / bur. məsul R. Mehdiyev. – Bakı: Azəməşr, 2005. s.42
6. Heydər Əliyev Müasir Azərbaycan Parlamentinin Banisidir. Azərbaycan Respublikası Milli Məclisinin Nəşri Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamları və Milli Məclisdə çıxışları. Bakı-2008,101-105
7. Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. Otuz birinci kitab noyabr, 2000 - yanvar, 2001.B., Azərnəşr, 2010
8. Həsənov Ə. Azərbaycan Respublikasının milli inkişaf və təhlükəsizlik siyasəti. Bakı, "Letterpress" nəşriyyat evi, 2011, s.304
9. Mahmudov Y. Azərbaycan tarixində Heydər Əliyev şəxsiyyəti. Bakı, "Təhsil", 2002, s.72
10. Orucov H. Heydər Əliyev və Azərbaycanda milli siyasət, B., Şərq-Qərb, 2002, s.66,67
11. Polis" jurnalı, 1997-ci il, №5, s.10.


**GUNEL MALIKLI, DOCTOR OF PHILOSOPHY OF POPOLITHOLOGY**
**FORMATION AND EVOLUTION OF STATEHOOD TRADITIONS IN AZERBAIJAN**
**SUMMARY**

Our country is about 5 thousand years of statehood. The first states on the territory of Azerbaijan were created at the end of IV– at the beginning of III centuries. Over time, the culture of Azerbaijan's statehood has grown, and new states have been created with increasingly developed and vast territories. Azerbaijan has historically encountered certain facts of occupation. An example of this is the occupation of the Sasanian-Iranian empire in the third century, by the Arab caliphate in the seventh century. Iran and Arab oppression existed for about 600 years, but they failed to destroy the ancient traditions of statehood in Azerbaijan. The Democratic Republic of Azerbaijan is a unique example of a democratic, legal and secular state in the whole East, including the Turkic-Islamic world, due to its political structure, the essence of statehood. and the essence of their actions in other areas of public life. In our opinion, all

aspects of the rich activity of the Azerbaijan Democratic Republic should be thoroughly investigated. The opportunities created by the cooperation of our country with other countries should be used, and the first sources in foreign countries should be included in the scientific circulation.

**ГЮНЕЛЬ МАЛИКЛИ, ДОКТОР ФИЛОСОФСКИХ НАУК ПОПОЛИТОЛОГИИ**

## СТАНОВЛЕНИЕ И ЭВОЛЮЦИЯ ТРАДИЦИЙ ГОСУДАРСТВЕННОСТИ В АЗЕРБАЙДЖАНЕ

**РЕЗЮМЕ**

Нашей стране около 5 тысяч лет государственности. Первые государства на територии Азербайджана были созданы в конце IV– в начале III веков. Со временем культура государственности Азербайджана выросла, и были созданы новые государства с все более развитыми и обширными территориями. Азербайджан исторически сталкивался с определенными фактами оккупации. Примером тому является оккупация сасанидско-иранской империи в третьем веке, арабским халифатом в седьмом веке. Иран и арабское угнетение существавали около 600 лет, но им не удалось разрушить древние традиции государственности Азербайджана. Азербайджанская Демократическая Республика является уникальным примером демократического, правового и светского государства на всем Востоке, включая тюрко-исламский мир, благодаря своей политической структуре, сущности государственности. и сути своих действий в других сферах общественной жизни. По нашему мнению, все аспекты богатой деятельности Азербайджанской Демократической Республики должны быть тщательно исследованы. Должны быть использованы возможности, создаваемые сотрудничеством нашей страны с другими странами, и в научный оборот должны быть включены первые источники в зарубежных странах.